**UDC:** 2.; 22; 22(09); 22.01; 229
**LBC:** 86.2; 36.37; 86.372; 86.375; 86.376
**MJ №** 306
10.33864/2617-751X.2025.v8.i4.156-170

# THE UNLETTERED PROPHET AND THE QUESTION OF ILLITERACY

**Tarlan Seyfullayev***

**Abstract.** The term Ummi Prophet is an expression found in the Holy Qur’an. It refers to a person who has not attended school, received formal education, or acquired the ability to read and write. According to the Qur’an, one of the attributes of the Prophet mentioned in the Torah and the Gospel is this very "ummiyyah" (unletteredness). From this perspective, being "ummi" is a virtue for the Prophet. Despite lacking the ability to acquire knowledge through reading and writing, the Prophet possessed divine and revealed knowledge, through which he brought to humanity the concept of salvation and happiness. According to scholars of theology and exegesis, it is itself a miracle that someone who cannot read or write could present to people a compendium of wisdom such as the Qur’an. The Holy Qur’an mentions the names of prophets, their relatives, supporters, and enemies; it provides detailed historical information and addresses legal matters such as khums, zakat, inheritance, marriage, divorce, various contracts, and numerous legal issues. It is indeed a miracle that someone who neither could read and write nor attended school or studied under a teacher could deliver this collection to his listeners in the environment of Mecca and Medina. From this point of view, being unlettered cannot be considered anything but a virtue for a prophet who lacks formal education and literacy. It becomes clear, then, that if a prophet who has not received education and does not know how to read and write is presenting to humanity a compendium encompassing wisdom, law, social, and political issues, the source of that compendium must be divine and celestial. Consequently, reports regarding the Prophet’s unletteredness can be divided into two chronological phases. Ultimately, we can conclude that the Prophet’s inability to read and write can only be ascribed to the period prior to his prophethood.

**Keywords:** Prophet, Unlettered, to write, to read, Qur’an, Illiteracy, Hadith

---

* Doctor of Philosophy in Theology,
Lecturer of the Al-Mustafa International University; Baku, Azerbaijan
E-mail: seyfi14@mail.ru
https://orcid.org/0000-0002-2391-2382
**To cite this article:** Seyfullayev, T. [2025]. THE UNLETTERED PROPHET AND THE QUESTION OF ILLITERACY. *“Metafizika” journal, 8*(4), pp.156-170.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i4.156-170

***Article history:***
*Received: 07.02.2025*
*Accepted: 31.07.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 2.; 22; 22(09); 22.01; 229
**ББК:** 86.2; 36.37; 86.372; 86.375; 86.376
**MJ №** 306
10.33864/2617-751X.2025.v8.i4.156-170

# УММИ-ПРОРОК И ВОПРОС БЕЗГРАМОТНОСТИ

**Тарлан Сейфуллаев***

**Абстракт.** Термин Умми-пророк является выражением, встречающимся в Священном Коране. Он обозначает человека, не посещавшего школу, не получившего формального образования и не умеющего читать и писать. Согласно Корану, одним из качеств Пророка, упомянутых в Торе и Евангелии, является именно "уммийя" (безграмотность). С этой точки зрения, уммийя является добродетелью для Пророка. Несмотря на отсутствие способности к получению знаний посредством чтения и письма, Пророк обладал божественным и откровенным знанием и посредством этого принес человечеству концепцию спасения и счастья. По мнению богословов и толкователей, сам факт, что человек, не умеющий читать и писать, смог представить людям такое собрание мудрости, как Коран, является чудом. В Священном Коране упоминаются имена пророков, их родственников, сторонников и врагов; в нем приводятся подробные исторические сведения, рассматриваются вопросы хумса, закята, наследства, брака, развода, различных договоров и множество юридических аспектов. То, что человек, не умеющий читать и писать, не обучавшийся в школе и не проходивший обучения у учителя, мог представить такую совокупность знаний слушателям в условиях Мекки и Медины- действительно является чудом. С этой точки зрения, уммийя для пророка, не обладающего грамотой и формальным образованием, не может быть ничем иным, кроме как добродетелью. Отсюда становится ясно, что если пророк, не получивший образования и не умеющий читать и писать, представляет человечеству сборник, охватывающий вопросы мудрости, права, социальной и политической жизни, то источник этого сборника непременно является божественным и небесным. В результате сообщения о безграмотности Пророка можно условно разделить на два хронологических этапа. В заключение можно сказать, что неспособность Пророка к чтению и письму может быть отнесена исключительно к периоду до его пророческой миссии.

**Ключевые слова:** Пророк, Умми, Писать, Читать, Коран, Безграмотность, Хадис

* Доктор философии по теологии,
Преподаватель Международного Университета «Аль-Мустафа»; Баку, Азербайджан
E-mail: seyfi14@mail.ru
https://orcid.org/0000-0002-2391-2382

**Цитировать статью:** Сейфуллаев, Т. [2025]. УММИ-ПРОРОК И ВОПРОС БЕЗГРАМОТНОСТИ. *Журнал «Metafizika»*, *8*(4), с.156-170.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i4.156-170

***История статьи:***
*Статья поступила в редакцию: 07.02.2025*
*Отправлена на доработку: 11.03.2025*
*Принята для печати: 31.07.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 2.; 22; 22(09); 22.01; 229
**KBT:** 86.2; 36.37; 86.372; 86.375; 86.376
**MJ №** 306
10.33864/2617-751X.2025.v8.i4.156-170

# ÜMMİ PEYĞƏMBƏR VƏ SAVADSIZLIQ MƏSƏLƏSİ

**Tərlan Seyfullayev***

**Abstrakt.** Ümmi Peyğəmbər Qurani-Kərimdə gələn ibarədir. Məktəb görməmiş, dərs almamış, yazı və oxumaqla tanışlığı olmayan biri deməkdir. Qurani-Kərimə görə Peyğəmbərin Tövrat və İncildə gələn sifətlərindən biri də ümmilikdir. Bu nöqteyi-nəzərindən ümmilik Peyğəmbər üçün bir fəzilətdir. Çünki Peyğəmbərin elm kəsb etmək üçün yazıb oxuma qabiliyyəti olmadığı halda vəhyani və səmavi elmə malik idi və bu yolla insanlar üçün xilas və xoşbəxtlik konsepsiyasını gətirmişdi. Kəlam və təfsir alimlərinə görə yazıb oxumanı bilməyən birinin Quran kimi hikmət toplusunu insanlara təqdim etməsi özü möcüzədir. Qurani-Kərimdə Peyğəmbərlərin, onların qohumları, tərəfdarları və düşmənlərinin adları keçir, orada tarixi məlumatlar detallı şəkildə qeyd edilir, xums, zəkat, irs, nikah, boşanma, müxtəlif müqavilələr və çoxlu hüquqi məsələlər keçir. Yazıb oxuma bilməyən birinin, məktəbə getməyən, hansısa müəllimin yanında dərs oxumayan birinin bu məcmuəni Məkkə və Mədinə mühitində dinləyicilərinə təqdim etməsi təbii ki, möcüzədir. Bu baxımdan ümmilik yazıb-oxumanı bilməyən və savadı olmayan bir peyğəmbər üçün fəzilətdən başqa bir şey ola bilməz. Buradan məlum olur ki, təlim-təhsil almayan və yazıb-oxumanı bacarmayan bir peyğəmbər insanlara hikmət, hüquq, sosial, siyasi məsələləri ehtiva edən toplunu təqdim edirsə deməli həmin toplunun mənbəyi ilahi və səmavidir. Nəticə etibarilə ümmiliklə bağlı xəbərləri zaman baxımından iki mərhələyə bölmək olar. Nəticə etibarilə deyə bilərik ki, Peyğəmbərin yazıb-oxumanı bacarmaması yalnız peyğəmbərlikdən öncəyə aid edilə bilər.

**Açar sözlər:** Peyğəmbər, ümmi, yazmaq, oxumaq, Quran, savadsızlıq, hədis

---

* İlahiyyat üzrə fəlsəfə doktoru,
Beynəlxalq əl-Mustafa Universitetinin müəllimi; Bakı, Azərbaycan
E-mail: seyfi14@mail.ru
https://orcid.org/0000-0002-2391-2382

**Məqaləyə istinad:** Seyfullayev, T. [2025] ÜMMİ PEYĞƏMBƏR VƏ SAVADSIZLIQ MƏSƏLƏSİ. *“Metafizika” jurnalı, 8*(4), səh.156-170.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i4.156-170

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 07.02.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 11.03.2025*
*Çapa qəbul edilmişdir: 31.07.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

İslam dini digər dinlərlə müqayisədə daha sürətlə yayılmaqdadır. İslam ən geniş yayılmış dinlərin arasında xristianlıqdan sonra ikincidir. Müsəlmanların sayı da bir milyard 800 milyon civarında təxmin edilir. Bu din hazırda 28 ölkədə rəsmi din kimi qəbul edilib və onun dünyanın 120 ölkəsində icmaları var. Hazırda dünya ölkələrinin 35-də əhalinin əksəriyyətini müsəlmanlar təşkil edir. Yayılma sürətində də taylarını geridə qoymaqdadır. Bu da o deməkdir ki, gələcəkdə həm coğrafi ərazilərə yayılması, həm də say baxımından artması gözləniləndir. Bir sıra beynəlxalq tədqiqat mərkəzlərinin məlumatına görə qarşıda gələn 30-40 ildə müsəlmanların sayı artaraq dünya əhalisinin üçdə birini təşkil edəcək və sayca xristianları geridə qoyacaq. Təbii ki bu artım dünya miqyasında demoqrafik vəziyyətin dəyişməsinə səbəb ola bilər deyə, bunun qarşısını almaq istəyən qüvvələrin İslam dininə qarşı hərəkətə keçməsini ehtimal etmək olar. Artıq otuz ilə yaxındır ki, dünya miqyasında bu tendensiyanın şahidiyik. Biz Sovet İmperiyasının süqutundan sonra da İslama qarşı duran səylərin artmasını görür və İslamofobiyanın necə yayıldığının şahidiyik. Bu istiqamətdə atılan addımlardan biri də İslam dini inanclarını terrorla əlaqələndirmək və Məhəmməd Peyğəmbərin şəxsiyyətilə bağlı tarixi məlumatları təhrif yolu ilə təqdim etməkdir. Habelə İslamın sürətlə yayılmasının qarşısını almaq yollarından biri də bu dini və ardıcıllarını elm və təhsildən uzaq bir zümrə olaraq təqdim etməkdir. Bu yolda Məhəmməd Peyğəmbərin ümmiliyi və yazıb-oxuma bacarığına malik olmaması məsələsi tez-tez gündəmə gətirilir. Həqiqətən də Peyğəmbər yazıb-oxuma bilmirdimi? Ümumiyyətlə Peyğəmbər üçün ümmilik fəzilətdir, yoxsa nöqsan?! Bu suallara cavab vermək üçün ümmiliyin mahiyyətini incələmək lazımdır.

## 2.Ümmi sözünə qısa baxış

“Ümm” ərəb dilində “əlif” - “mim” - “mim” hərflərindən təşkil edilib və hərfi mənada hər şeyin əsli və kökü deməkdir [Rağib İsfahani, 1412: s.85]. Əgər ərəb dilində anaya “Umm” deyilirsə uşağın əsli və kökünə işarə edilir. Ya da “Əmmə” (Əlif-mim-mim) feli qəsd etmək deməkdirsə [İbn-Mənzur, 1414: c.22, s.12] bu da uşağın ananı qəsdində və nəzərində tutub ona yaxınlaşması deməkdir. Yaxud da öndə gedən rəhbərə “İmam” deyilirsə insanların onu lider olaraq qəsdlərində tutmasına görədir [İbn-Mənzur, 1414: c.22, s.12] Habelə əgər bir vahid qrupa ümmət deyilirsə deməli din və ideologiya kimi bir iş onları cəmləşdirib bir araya gətirir və onların ortaq kökü var [Rağib İsfahani, 1412: s.86]. Nəticə etibarilə ümmi bu mənalarda təxmin edilə bilər:

1- Yazıb, oxumanı bacarmayan.

2- Hər şeyin əsli və kökü. Yəni insan doğulduğu ilk gündə yazı və oxumanı bilməyən həmin insandır.

3- Ümmi ərəb ümmətinə mənsub olan şəxsdir. Yəni ərəblər o zaman üçün yazı və oxumanı bilməyən bir xalq idi.

4- Ümmi anaya (umm) mənsub şəxsdir. Yəni anadan gəlmə yazı və oxumanı bacarmayandır.

5- Ümmi “Ümmul-qura”ya, yəni Məkkəyə mənsub olan şəxsdir.

6- Ümmi və ya ümmiyyun: Səmavi kitabların nazil edildiyi ümmət.

Ümmi kəlməsi Qurani-Kərimdə altı dəfə gəlib. İki dəfə tək halında, dörd dəfə isə cəm şəklində gəlib. Tək halında gələn iki məqam Peyğəmbərin sifətlərindən birini açıqlayır. Ayələrdə belə buyurulur:

*“O kəslər ki, əllərindəki Tövratda və İncildə (adını, vəsfini və əlamətlərini) yazılmış gördükləri rəsula–ümmi (heç kəsin yanında oxuyub elm öyrənməmiş və ya məkkəli) peyğəmbərə tabe olurlar. (O Peyğəmbər) onlara yaxşı işlər görməyi buyurar, pis işləri qadağan edər, təmiz (pak) nemətləri halal, murdar (napak) şeyləri haram edər, onların ağır yükünü yüngülləşdirər və üstlərindəki buxovları açar. Ona (o Peyğəmbərə) iman gətirən, yardım göstərən və onunla (Quranın) ardınca gedənlər məhz onlar nicat tapanlardır.*

*(Ya Rəsulum!) De: “Ey insanlar! Mən Allahın sizin hamınıza göndərilmiş peyğəmbəriyəm. (O Allah ki) göylərin və yerin hökmü Onundur, Ondan başqa heç bir tanrı yoxdur. O dirildir və öldürür. Buna görə də Allah, eləcə də Onun Allaha və Allahın sözlərinə (ayələrinə, nazil etdiyi kitablara) inanan və ümmi peyğəmbər olan Rəsuluna iman gətirin və ona tabe olun ki, doğru yolu tapa biləsiniz!”* [Əraf/157-158].

Bu kəlmə Quranda dörd dəfə [Bəqərə /78; Ali-İmran /20-75 və Cümə /2] cəm şəklində “ummiyyun” və “ummiyyin” olaraq gəlib. Təfsir alimləri ümdətən onu “savadsızlar” və “avamlar” deyə tərcümə edirlər. Məsələn Bəqərə surəsinin 78-ci ayəsində belə buyurulur: “*Onların arasında Kitabı bilməyən elə savadsızlar vardır ki, onlar ancaq xülyalara dalar və ancaq zənnə uyarlar*”.

Seyyid Əliəkbər Qurəşi ümmi kəlməsini dərs almamış deyə mənalandırır [Qurəşi, 1377: c.1, s.119]. Belə ki insan doğulanda oxumaq və yazmağı bilmədiyi kimi sonrakı yaşlarında da savad ala bilməyib və yazıb oxumağı bacarmır. V əsr alimi Şeyx Tusi (995-1067) ümmiyə yazmağı bilməyən şəxs olaraq tərif verir [Şeyx Tusi, c.4, s.559]. Əllamə Təbatəbayi (1892-1981) ümmini yazıb oxumağı bilməyən şəxs kimi qələmə verir [Təbatəbayi, 1417: c.1, s.215]. Digər müfəssir Rəşid Rza (1865-1935) ümmiyə dərs oxumamış və təhsil almamış şəxs kimi tərif verir [Rəşid Rza, 1990: c.2, s.385]. Mərhum müsəlman mütəfəkkiri Mürtəza Mütəhhəri (1919-1979) bildirir ki, əksər təfsir alimləri ümmi kəlməsini yazıb-oxumanı bacarmayan şəxs olaraq qələmə verirlər [Mütəhhəri, 1381: s.40].

Bundan savayı Quranı-Kərimdə bir sıra ayələr mövcuddur ki, orada ümmi kəlməsi keçməsə də Məhəmməd ibn Abdullahın, peyğəmbərlik elan edilməmişdən öncə ələ qələm almadığı və kitab oxumadığı açıq-aşkar deyilir. Ənkəbut surəsində belə buyurulur: “*Sən bundan əvvəl nə bir Kitab oxuya*

*bilirdin, nə də onu əlinlə yaza bilirdin. Belə olsaydı, batilə uyanlar şübhəyə düşərdilər*” [Ənkəbut/48].

Avropalı şərqşünaslardan Con Davenport (1789-1877), [Con Davenport, 1344: s.17-18]. Tomas Karleyl (1795-1881), [Mütəhhəri, c.3, s.206-207] Vill Dürant [Cəvahiri, 1397: s.226] (1885-1981) və Konstantin Virgil Georgi də (1916-1992) [Cəvahiri, 1397: s.227] Məhəmməd Peyğəmbərin yazıb oxumanı bilmədiyi və ümmi olduğunu qəbul ediblər.

Ümmi olmaq Məhəmməd Peyğəmbər üçün mənfi hal deyil, bir fəzilət və üstünlük hesab edilir. Belə ki, Məhəmməd ibn Abdullahın oxuma yazma savadı olmadığı halda səmavi elmə malik idi. O ümmi ola ola Ərəbistan Yarımadası xalqlarının çoxunu hidayət yoluna yönəltdi. Müxtəlif hikmətlərə, qeybi xəbərlərə, öncəki xalqların həyatı, peyğəmbərlərin başlarına gələn hadisələr, cəmiyyətin sosial həyatını nizamlayan bir çox hüquqi məsələlərə şamil olan Qurani-Kərimi gətirmiş şəxsin ümmi olması Onun qeyblə, fövqəlbəşər qüvvə ilə və metafizika aləmi ilə əlaqədə olduğunu göstərir. Buna görə bir qism tədqiqatçılar ümmi olmağı peyğəmbərlik məqamının göstəricilərindən, dəlillərindən və möcüzələrindən biri hesab edirlər [Muğniyə, 1424: c.3, s.404]. Ümmilik Məhəmməd peyğəmbər üçün bir üstünlük, Onun Allahla rabitəsini göstərən bir amil hesab edilirsə digər insanlar üçün üstünlük deyil, mənfi hal kimi hesab edilməlidir. Bu fikirdə olan alimlərə görə ümmilik Məhəmməd peyğəmbərin özünəməxsus üstünlüyüdür və digər Peyğəmbərlərə şamil deyil [Muğniyə, 1424: c.3, s.404].

Qeyd etmək lazımdır ki, Məkkə bütpərəstləri Məhəmməd Peyğəmbərin sözlərini dinlədikdən və cəzbedici fəaliyyətini gördükdən sonra Ona şair, [Saffat/36] kahin, [Haqqə/42] dəli [Əraf/184], sehrbaz, [Ənam/7, Yunus/2] Allaha iftira atan və sayıqlayan [Ənbiya/5] kimi sözlərlə töhmət vururdular. Məkkə bütpərəstlərinin Məhəmməd peyğəmbərə Qurani-Kərimi başqasından təlim alması ilə bağlı ittihamına bir yerdə rast gəlirik: Nəhl surəsində deyilir: “*Biz (müşriklərin): “(Quranı) ona (Muhəmmədə) bir insan (ara-sıra görüb danışdığı Cəbr ər-Rumi adlı xaçpərəst bir gənc) öyrədir!” – dediklərini də bilirik. Onların nəzərdə tutduqları adamın dili başqa dildir. Bu (Quranın dili) isə açıq-aşkar (bəlağətli, fəsahətli) ərəb dilidir! (Ərəblər özləri Quranın dil, üslub gözəlliyi qarşısında heyranlıqlarını, acizliklərini gizlədə bilmədikləri halda, əcəmlər bu cür fəsahətli ərəb dilini haradan bilə bilərlər?!)”* [Nəhl/103] Ayədən göründüyü kimi Məkkə bütpərəstləri Məhəmməd ibn Abdullahın ustadının olması, vaxtaşırı müəllim yanına gedib dərs alması ilə bağlı turarlı bir dəlil gətirə bilmirdilər. Onlar Məhəmməd ibn Abdullahın dediyi kəlamların mənbəyini kahinliyə, şairliyə, sehrbazlığa bağlamağa çalışırdılar. Peyğəmbər uşaqlıqdan daima onların gözü qarşısında olub və onların qarşısında boya başa çatmışdı. Bütpərəstlər Onun ustadının olduğunu dəqiq ortaya qoya bilmirdilər. Əgər onun mütəmadi ustad yanına getdiyini görsəydilər hökmən onu dilə

gətirərdilər. Digər ifadə ilə desək Məhəmməd ibn Abdullahın həyatının bütün xırdalıqlarını bu günümüzün şərqşünas tədqiqatçıları deyil, Məkkə bütpərəstləri bilirdi və əgər Məhəmməd ibn Abdullahın hər hansı "eybi" olsaydı məhz həmin bütpərəstlər üzə çıxara bilərdilər. Bu nöqteyi-nəzərindən Məkkə bütpərəstlərinin və rəqib qəbilələrin başçılarının Peyğəmbər barədə, habelə Qurani-Kərimin mənbəyi barədə ünvanladıqları ittihamlar araşdırılmalıdır. Onların arasında Məhəmməd peyğəmbərin təlim-təhsil alması ilə bağlı yalnız bir ittiham var. Qurani-Kərimdə həmin ittihamın özünə cavab vardır və ayədə bildirilir ki, Məhəmməd Peyğəmbərin tilavət etdiyi fəsahətli bəlağətli Quran ayələri olduğu halda, Amir ibn əl-Hədrəminin Rumdan aldığı nökəri, Məkkə bazarında qılınc düzəldən Cəbr ər-Rumunin danışdığı dil isə əcəmidir və o ərəb dilini də yaxşı bilmir [Beyzavi, 1989: c.3, s.241]. Nəticə etibarilə Qurani-Kərimin ayələrinin maddi mənbəyi tapılmadıqca, yazıb oxumanı bilməyən Məhəmməd ibn Abdullahın metafizika aləmi və fövqəlbəşər qüvvə ilə rabitəsi daha aydın görünür.

Tanınmış müfəssir Əllamə Təbatəbayi "əl-Mizan" adlı əsərində bu məsələyə köklənməyə çalışır və ümmi peyğəmbərin hikmət məcmuəsi olan Qurani-Kərimi tilavət etməsini peyğəmbərliyi göstərən möcüzə adlandırır. Əllamə Təbatəbayi Qurani-Kərimdə "təhəddi" ayələrindən [Tur/34, Qisəs/49, İsra/88, Hud/13, Yunus/38, Bəqərə/23] söhbət açır və bildirir ki, bu altı ayə dinləyiciləri mübarizəyə səsləyir. Təhəddi ayələri ona inanmayan bütpərəstlərdən və digərlərindən tələb edir ki, Quran kimi və ya onun 10 surəsi kimi, ya da heç olmasa onun surələrindən biri kimi bir surəni ortaya qoysunlar. Müfəssirin sözlərinə görə mübarizəyə səsləyən bu ayələrin bir tələbi də budur ki, sizdən ümmi olan biriniz, yazı və oxumanı bilməyən, məktəb və müəllim görməyən biriniz belə bir fəsahətli və bəlağətli Quran surələrini ortaya qoysun. Bu nöqetyi-nəzərindən təbii ki, ümmilik Məhəmməd peyğəmbər üçün mənfi hal deyil, fəzilət və üstünlük əlamətidir [Əllamə Təbatəbayi, 1417: c.1, s.63].

Digər müfəssir Cavadi Amuli deyir: "*Əgər Məhəmməd Peyğəmbər mədəniyyətin və təhsilin inkişaf etdiyi bir yerdən çıxsaydı və İslam dinini oradan yaymağa başlasaydı, onda bu iş elə də möcüzə olaraq görünməzdi. Lakin zülmət gecədə günəş doğursa bu möcüzə olar*".

Tədqiqatçılar dr.Abbas Hümami və dr.Rəhmət Şayəstə-fərd Qurani-Kərimdə Peyğəmbərin ümmi adlandırılması ilə bağlı geniş araşdırma aparıblar və sonda bu nəticəyə gəliblər ki, ümmi sözü yazıb oxumanı bilməyən şəxsə deyilsə belə, bu peyğəmbərliyin elan edilməsindən öncəyə aiddir. Baxmayaraq ki, adıkeçən iki tətqiqatçı ümmi sözünü yazıb oxumanı bilməyən şəxs deyil, "Ümmul-qura"ya, yəni Məkkəyə mənsub şəxs kimi qələmə verirlər [Abbas Humami və Rəhmət Şayəstefərd, 1391: say: 3, s.11-12]. Tədqiqatçılar "*Sən bundan əvvəl nə bir Kitab oxuya bilirdin, nə də onu əlinlə yaza bilirdin. Belə olsaydı, batilə uyanlar şübhəyə düşərdilər*" [Ənkəbut/48] ayəsinə istinadən bildirirlər ki,

yazıb oxumanı bilməmək peyğəmbərliyin elan edilməsindən öncəyə aiddir. Habelə peyğəmbərlik missiyası zamanı nazil olan bəzi ayələrdən bu əldə edilir ki, Məhəmməd peyğəmbər özü Quranı müsəlmanlara təlim edirdi. Cümə surəsində deyilir: “*(Əksəriyyəti yazıb-oxumaq bilməyən) ümmi ərəblərə özlərindən peyğəmbər göndərən Odur. (Bu Peyğəmbər) əvvəllər haqq yoldan açıq-aşkar azsalar da, onlara (Allahın) ayələrini oxuyar, onları (günahlardan, şirk və küfr çirkabından) təmizləyər, onlara Kitabı və hikməti (Quranı və şəriəti) öyrədər*” [Cümə/2, Bəqərə/129-151, Ali-İmran/164].

**3.Yazıb-oxuma ilə bağlı əsas iki mərhələ**

İslam Peyğəmbərinin savadsız olması şübhəsinə cavab olaraq demək lazımdır ki, Məhəmməd Peyğəmbərin ilahi elmlərə malik idi və sözsüz ki, oxuyub yazmağı bilirdi. Biz burada Peyğəmbərin həyatını yazıb-oxumaq baxımından iki hissəyə ayıra bilərik; Peyğəmbər seçilməzdən öncəki illər və peyğəmbər seçildikdən sonrakı illər. Quran ayəsinə əsasən Məhəmməd peyğəmbər, peyğəmbərlik məqamına nail olmadan öncə yazmayıb və oxumayıb. Belə ki buyurulur: “*Sən bundan əvvəl nə bir Kitab oxuya bilirdin, nə də onu əlinlə yaza bilirdin. Belə olsaydı, batilə uyanlar şübhəyə düşərdilər*” [Ənkəbut/48]. Ayədə qeyd edildiyi kimi Məhəmməd peyğəmbər seçilməzdən öncə yazmayıb və oxumayıb. Amma peyğəmbər seçildikdən sonra yazıb-oxumanı bacarıbmı? Bu haqda Quranda açıq-aşkar ayə yoxdur.

Seyyid Mürtəza Ələmul-Hüda deyir: “*Bu ayə ən gözəl dəlildir. Allah Rəsulu peyğəmbərlikdən əvvəl oxuyub yazmağı bilmirdi, amma vəhy gələndən sonra, inanıram ki, yazıb-oxumanı bacarırdı. Ayənin zahiri mənası da peyğəmbərlikdən öncə oxuma-yazmanı inkar etdiyi üçün bu fikirlə uyğun gəlir və ayədə “şübhəyə düşərdilər” qeydi göstərir ki, Məhəmmədin ümmi olmasında Allahın xüsusi hikməti olub. Hikmət də bundan ibarətdir Məhəmməd peyğəmbərlikdən əvvəl savadlı olsaydı və oxuyub yazmağı bilsəydi, Qureyş bütpərəstləri onun peyğəmbərliyinə şübhə edərdilər. Lakin peyğəmbərlikdən sonra heç bir şəkk-şübhə yoxdur, çünki O, Cəbrayıldan öyrənə bilərdi*” [Təbərsi, 1372: c.8, s.450].

**4.Təlim-təhsil peyğəmbərlərin göndərilməsinin məqsədi**

Qurani Kərimdə dörd ayədə elm öyrətmək və insan ruhunu (bu elmlə) tərbiyə etmək peyğəmbərlərin göndərilməsinin ən mühüm hədəflərindən biri kimi təqdim edilmişdir. Cümə surəsinin ikinci ayəsi, Al-İmran surəsinin 164-cü ayəsi, Bəqərə surəsinin, 15 və 129-cu ayələri həmin ayələrdir.

İslam Peyğəmbəri də təlim-təhsili öz missiyasının mühüm hədəflərindən biri kimi təqdim edir. Bir gün həzrət Məhəmməd məscidə daxil oldu və iki qrup insan gördü: Biri ibadət edərək Allahla rabitə yaratmağa çalışır, digəri təhsil və elm müzakirəsi ilə məşğul idi. Peyğəmbər dedi: Hər ikisi yaxşı iş görür, lakin mən təlim-təhsil üçün göndərilmişəm və sonra elm müzakirəsi ilə məşğul olan qrupun sırasına qatıldı [Məclisi, 1983: c.1, s.206]. Hədisdən də göründüyü

kimi, Məhəmməd ibn Abdullah peyğəmbərliyə çatdıqdan sonra elmlə ünsiyyətdə olub. Bu o deməkdir ki, hər bir şeydə, hər bir işdə nümunə olan şəxs [Əhzab/21] gərək yazmaqada və oxumaqda da, digərlərinə nümunə olsun. Bu məntiqlə yola çıxsaq, deyə bilərik ki, peyğəmbərlikdən sonra onun yazıb oxuma bilməməsi qeyri mümkündür.

Peyğəmbər ümmı idi, amma ona nazil olan ilk ayələrdə qələm və elm, yəni yazmaq, yazı yazdırmaq, öyrənmək və tədris etməkdən bəhs edilir [Ələq/4-5]. Heç bir böyük dində bu qədər elmə əhəmiyyət verilməmişdir və elə bir din tapılmaz ki, onun başlanğıcında elm və biliyə bu qədər dəyər və əhəmiyyət verilmiş olsun.

Göründüyü kimi Ələq surəsinin əvvəlində Allah qələm və yazıdan bəhs etmişdir. Hətta qələmə and içmişdir. Bu ayələr İslam peyğəmbərinin yazıb-oxumağı bildiyini, kitab və qələmlə ünsiyyətdə olduğunun açıq və birmənalı sübutu deyilmi?! Necə ola bilər ki, Peyğəmbər (s) insanları elm, savad və yazmağa təşviq edir, halbuki özü oxuyub yazmağa əhəmiyyət vermir?! Halbuki o, həmişə hər yaxşı işdə qabaqcıl olub.

Bildiyimiz kimi, yazıb oxumaq insanın inkişafı üçün çox mühüm bir bacarıqdır və onun bir çox üstünlükləri var. Bu bacarıq insanın düşüncə qabiliyyətini artırır və yaradıcı fikirləri inkişaf etdirir. Yazıb oxumaqda bu xüsusiyyətləri nəzərə alaraq deyə bilərik ki, həzərt Məhəmməd hökmən yazıb-oxumağı bacarıbdır. Çünki mümkün deyil Peyğəmbər digərlərini yazıb-oxumağa dəvət etsin amma özü onu bacarmasın.

**5.Peyğəmbərin yazıb-oxumanı bacarmasına dair fərqli ayə**

«لَقَدْ مَنَّ اللَّهُ عَلَى الْمُؤمِنينَ اذْ بَعَثَ فيهِمْ رَسولًا مِنْ انْفُسِهِمْ يَتْلوا عَلَيْهِمْ اياتهِ و يُزَكّيهِمْ وَ يُعَلِّمُهُمُ الْكِتابَ وَ الْحِكْمَةَ وَ انْ كانوا مِنْ قَبْلُ لَفى ضَلالٍ مُبينٍ».

*Allah möminlərə lütf etdi. Çünki onların öz içərisindən özlərinə (Allahın) ayələrini oxuyan, onları (pis əməllərdən) təmizləyən, onlara Kitabı və hikməti öyrədən bir peyğəmbər göndərdi. Halbuki bundan əvvəl onlar açıq-aydın zəlalət içərisində idilər* [Ali-İmran/164].

Qurani-Kərimə görə, Peyğəmbərin birinci vəzifəsi öz ardıcıllarına Quranı öyrətmək idi. Şübhəsiz ki, başqalarına kitab və ya kitabın məzmununu və kitab haqqında məlumatı öyrətmək istəyən şəxs üçün minimum tələb qələmdən istifadə edə bilməsi və ya heç olmasa qələmlə yazılanları oxuya bilməsidir.

**6.Ümmilik mövzusu hədis qaynaqlarında**

Məhəmməd Peyğəmbərin ümmi olması ilə bağlı bəzi məlumatlara hədislərdə də rast gəlirik. Şeyx Səduq (917-991) Məanil-əxbar əsərində ümmiliyin mənası ilə bağlı İmam Məhəmməd Təqiyə (811-835) ünvanlanan sualı gətirib. Bu hədisdə deyilir:

«...عن جعفر بن محمد الصوفی قال: سالت ابا جعفر محمد بن علی الرضا (ع) فقلت: یا ابن رسول الله لم سمی النبی (ص) الامی؟ فقال: ما یقول الناس قلت: یزعمون انه سمی الامی لانه لم یکتب. فقال (علیه‌السّلام): کذبوا، علیهم لعنة الله، انی ذلک والله (عزّوجلّ) یقول فی محکم کتابه: هو الذی بعث فی الامیین رسولا منهم یتلوا علیهم آیاته ویزیکیهم ویعلمهم الکتاب والحکمة فکیف کان یعلمهم ما لا یحسن والله لقد کان رسول الله (ص) یقرء ویکتب باثنین وسبعین لسانا وانما سمی الامی لانه کان من اهل مکة ومکة من امهات القری، وذلک قول الله (عزّوجلّ) لتنذر ام القری ومن حولها».

Cəfər ibn Muhəmməd əs-Sufi dedi: Mən Əbu Cəfər Məhəmməd ibn Əli ər-Rizadan (ə) soruşdum və dedim: Ey Allah Rəsulunun oğlu, Peyğəmbər (s) nə üçün Ümmi adlanırdı? Dedi: İnsanlar nə deyirlər? Dedim: İddia edirlər ki, onu yazmadığı üçün savadsız adlandırıblar. İmam (ə) dedi: Onlar yalan danışdılar. Allahın lənəti onlara olsun. Necə yaza bilmirdi?! Halbuki Allah əzəmətli kitabında buyurur: "*O, savadsız qövm arasında özlərindən onlara Onun ayələrini oxuyan, onları pak edən, onlara Kitabı və hikməti öyrədən bir peyğəmbər göndərdi*". Yaxşı olmayanı onlara necə öyrədə bilərdi? Allaha and olsun ki, Allahın Rəsulu yetmiş iki dildə oxuyub yazıb, lakin O, Məkkə əhlindən olduğuna görə və Məkkə də şəhərlərin anası olduğu üçün onu "ummi" adlandırırdılar, elə buna görə də Uca Allah belə buyurur: *(Ya Peyğəmbər!) Şəhərlərin anası (olan Məkkə) əhlini və onun ətrafındakıları (bütün başqa insanları) qiyamət günü ilə qorxutmağın üçün sənə ərəbcə Quran vəhy etdik* [İbn Babveyh, 1403: s.53-54].

Buna bənzər başqa bir hədisi Əbdürrəhman ibn əl-Həccac İmam Sadiqdən (ə) nəql edib:

«... عَبْدِ الرَّحْمَنِ بْنِ الْحَجَّاجِ قَالَ قَالَ أَبُو عَبْدِ اللَّهِ (ع) إِنَّ النَّبِيَّ (ص) كَانَ يَقْرَأُ وَ يَكْتُبُ وَ يَقْرَأُ مَا لَمْ يُكْتَبْ».

Əbdürrəhman ibn əl-Həccac deyir: Əbu Abdullah demişdir: "Peyğəmbər oxuyub yazardı və hətta yazılmayanları da oxuyardı [Səffar, 1404: s.227].

İmam Cavad (ə) və İmam Sadiqin (ə) bu kəlamından sonra İslam Peyğəmbərinin oxuyub-yazmaq bacarığı ilə bağlı heçbir şübhə qalmır.

Amir Şəəbi yazır:

«أنه (صلی الله علیه و آله) قرأ صحيفة لعُيَيْنَةَ بن حصن و أخبر بمعناها».

Məhəmməd peyğəmbər şəxsən Uyəynə adlı şəxsin məktubunu oxudu və orada yazılanların mənasını söylədi [İbni Ətiyyə Əndəlosi, 1422: c.4, s.322].

Peyğəmbərin oxuya bildiyini göstərən digər bir hədis belədir:

«الصَّدَقَةُ بِعَشْرِ أَمْثَالِهَا، وَالْقَرْضُ بِثَمَانِيَةَ عَشَرَ، فَقُلْتُ: يَا جِبْرِيلُ مَا بَالُ الْقَرْضِ أَفْضَلُ مِنَ الصَّدَقَةِ؟ قَالَ: لِأَنَّ السَّائِلَ يَسْأَلُ وَعِنْدَهُ، وَالْمُسْتَقْرِضُ لَا يَسْتَقْرِضُ إِلَّا مِنْ حَاجَةٍ».

Peyğəmbər buyurub: İsra (Merac) gecəsi Cənnətin qapısına belə yazıldığını gördüm: “Sədəqə on qat, borc isə on səkkiz qat dəyərindədir. Mən dedim: Ey Cəbrayıl, nə üçün borc sədəqədən üstündür? Buyurdu: Çünki dilənçi olanda da dilənir, borc alan isə ancaq ehtiyacı olanda borc alır [Qəzvini,1418: c.2, s.812].

“Gördüm” sözündən ilk əldə edilən və anlaşılan Peyğəmbərin özünün oxumasıdır. Yəni Peyğəmbər özü görüb, kəlamın məzmununu qeybi yardımla dərk etməsinə ehtiyac qalmayıb.

Alusi bu hədisi nəql etdikdən sonra öz təfsir kitabında yazır:

Oxumaq qabiliyyəti yazı bacarığının bir qoludur. Səhih Buxari və digər qaynaqlardakı xəbərlər də Allah Rəsulunun yaza bildiyini təsdiq edir. Məsələn, Hudeybiyyə Sülh Müqaviləsi məsələsində Allah Rəsulu özü şəxsən müqaviləni qəbul edərək yazdı. O burada belə yazdı: Bu, Məhəmməd ibn Abdullahın hökmüdür [Alusi, 1415: c.11, s.6].

Digər hədislər də bunu təsdiq edir, o cümlədən:

«عن ابی هریرة قال: قال رسول الله (ص): رایت لیلة اسری بی الی السماء علی العرش مکتوبا: لا اله الا

انا وحدی لا شریک لی، ومحمد عبدی ورسولی ایدته بعلی. فذلک قوله: هُوَ الَّذِی أَیَّدَکَ بِنَصْرِهِ وَ بِالْمُؤْمِنِینَ».

Əbu-Hureyrə rəvayət edir: Allahın Rəsulu belə buyurdu: Mən İsra (Merac) gecəsi cənnətə səfərə aparıldığım gecə ərşdə gördüm ki, belə yazılıbdır: “Məndən başqa məbud yoxdur, mənim şərikim yoxdur, Məhəmməd mənim qulum və rəsulumdur və Əli ilə birlikdə onu dəstəkləyirəm. Bu, onun dediyidir: O kəsdir ki, öz qələbəsi ilə və möminlərlə birlikdə sizə dəstək oldu [Siyuti, 1404: c.3, s.199].

«... عَنْ أَبِی الْحَمْرَاءِ خَادِمِ النَّبِیِّ (ص) قَالَ: سَمِعْتُ رَسُولَ الله (ص) یَقُولُ: لَمَّا أُسْرِیَ بِی إِلَی السَّمَاءِ دَخَلْتُ

الْجَنَّةَ فَرَأَیْتُ فِی سَاقِ الْعَرْشِ مَکْتُوبًا لَا إِلَهَ إِلَّا اللهُ مُحَمَّدٌ رَسُولُ الله أَیَّدْتُهُ بِعَلِیٍّ وَنَصَرْتُهُ هِلَالٌ السُّلَمِیُّ الْأَسْلَمِیُّ»

Peyğəmbərin qulu Əbu əl-Həmradan rəvayət edilir ki, o dedi: Mən Allah Rəsulunun belə dediyini eşitdim: Məni səmaya səfərə aparanda Cənnətə daxil oldum və Ərşin ayağında belə yazıldığını gördüm: “Allahdan başqa ilah yoxdur və Məhəmməd Allahın Rəsuludur. Əli ilə ona kömək etdim, Hilal əl-Sələmi ilə də ona dəstək oldum [Təbrani, 1398: c.22, s 200].

«وَأخرج ابْن عدی وَابْن عَسَاکِر عَن أنس رَضِی الله عَنهُ قَالَ: قَالَ رَسُول الله: لما عرج بِی رَأَیْت علی سَاق

الْعَرْش مَکْتُوبًا لَا إِلَه إِلَّا الله مُحَمَّد رَسُول الله أیدته بعلی»

İbn-Ədi və İbn-Əsakir Ənəsdən rəvayət nəql edir ki, o demişdir: Allahın Rəsulu belə buyurdu: Meraca aparıldıqda ərşin ayağında belə yazılmış olduğunu gördüm: “*Allahdan başqa məbud yoxdur, Muhəmməd Allahın rəsuludur və mən Əli ilə birlikdə ona dəstək oldum*” [Siyuti, 1404: c.4, s.153].

«رایت لیلة الاسراء مكتوبا على باب النار« اذل الله من اهان الاسلام، اذل الله من اهان اهل بیت نبی الله، اذل الله من اعان الظالمین على المظلومین».

Məhəmməd peyğəmbərdən nəql edilir: Merac gecəsi cəhənnəmin qapısında bu yazıları gördüm: “*İslam dininə qarşı hörmətsizlik edib İslam dinini xar edəni Allah zəlil edər. Peyğəmbərin ailəsini təhqir edən hər kəsi Allah xar edəcəkdir. Məzlumlara qarşı çıxaraq zalımlara kömək edənləri Allah zəlil edər*” [Qunduzi, 1422: c.2, s.378].

Siyuti öz əsərində yazır:

«...:عبد الله بن عتبَة عَن أَبِيه قَالَ: مَا مَاتَ النَّبِی (ص) حَتَّى قَرأَ وكَتب...».

Abdullah ibn Ütbə atasından belə nəql etmişdir: Peyğəmbər (s) dünyasını dəyişməmişdən öncə yazmağı və oxumağı bacarırdı [Siyuti, 1404: c.3, s.574].

**7.Sülh müqaviləsi və hədisləri yazan ümmi peyğəmbər**

Muhəmməd ibn İsmayıl Buxari etiraf edir ki, Hüdeybiyyə sülh müqaviləsi zamanı müsəlmanlarla Qüreyş başçıları arasında sülh müqaviləsində “Rəsulullah” kəlməsinin yazılması ilə bağlı ixtilaf yarananda İslam Peyğəmbəri müqaviləni şəxsən götürüb onun mətnini belə yazdı: *“Allahın Rəsulu (s) məktubu götürdü və yazdı: Muhəmməd ibn Abdullah belə buyurur: Məkkəyə heç bir silah qınından çıxmış halda daxil ola bilməz”* [Buxari, 1410: c.3, s.168].

Qələm (və ya Qirtas) hədisi isə belədir:

«قَالَ ائْتُونِی بِدَوَاة وَ كَتف أَكْتُبْ لَكُمْ كتاباً لَا تَضلُّوا بَعْدَهُ أَبَداً»

Məhəmməd peyğəmbər ölümündən dörd gün öncə ölüm yatağında ikən buyurdu: “Mənə bir mürəkkəb və heyvanın çiyin sümüyünü gətirin, sizə bir sənəd yazım ki, ondan sonra heç vaxt yolunuzu azmayasınız”.

Hədisdə qeyd edilən “sizin üçün yazım” ifadəsi açıq şəkildə Peyğəmbərin özünün yazmaq bacarığına dəlalət edə bilər [İbn Babveyh, 1395: c.1, s.273].

**8.Abbasın Peyğəmbərə (s) məktubu**

Peyğəmbər həm də məktub yazır və onları qəbul edirdi. O bəzən məxfi məktubları özü oxuyur və özü cavablandırırdı. İmam Sadiq buyurub: Allahın Rəsuluna bəxş etdiyi nemətlərdən biri də bu idi ki, o, oxuyurdu, amma yazmırdı. Əbu-Süfyan Ühüdə tərəf gedəndə, Abbas Peyğəmbərə məktub yazdı. Məktub ona, Mədinənın kənarında bir bağda olduğu zaman çatdı. Peyğəmbər onu oxudu, amma yoldaşlarına xəbər vermədi və onlara şəhərə qayıtmağı əmr etdi. Şəhərə daxil olduqdan sonra isə onlara məlumat verdi [Bəhrani, 1416: c.5, s.374].

**9.Nəticə**

Bəşəriyyətin ən kamil insanı İslam Peyğəmbəri ilahi elmlərə malik idi və sözsüz ki, oxuyub yazmağı bilirdi. Biz burada Peyğəmbərin həyatını yazıb-

oxumaq baxımından iki hissəyə ayıra bilərik. Peyğəmbər seçilməzdən öncəki illər və peyğəmbər seçildikdən sonrakı illər. Quran ayəsinə əsasən Məhəmməd peyğəmbər, peyğəmbər seçilməzdən öncə yazıb-oxumayıb və heç bir şəxsdən təhsil almayıb. Amma peyğəmbər seçildikdən sonra Allahın izni və verdiyi elm ilə oxuyub yazmağı bacarıbdır. Qeyd edilən izahlar da bunu sübut edir.

## ƏDƏBİYYAT


1. Alusi, Seyyid Məhmud. (1415 h.q.). *Ruhul məani fi təfsiril Quranil əzim*. Beyrut: Darul Kutubul Elmiyyə.
2. Bəhrani, Seyyid Haşim. (1416 h.q.). *Əl-Burhan fi təfsiril Quran*. Tehran: Boyade Besət.
3. Beyzavi, Nasirəddin. (1989). *Təfsirul-Beyzavi*. Beyrut: Dar Ehya ət-Turas əl-Ərəbi.
4. Buxari, Məhəmməd ibn İsmail. (1410 h.q.). *Səhih Buxari*. Qahirə, Misir: Cumhurriyyətu Misr Ərəbiyyə.
5. Cəvahiri, Məhəmməd-Həsən. (1397 h.ş.). *Pasox be şobohate ecaz və təhəddi*. Pəjuheşqahe Fərhəng və Əndişeye İslami.
6. Davenport, Con. (1344 h.ş.). *Ozre təqsir be pişqahe Mohammad və Qoran* (Tərcümə). Tehran: Nəşri İntişar.
7. Humami, Abbas, & Şayəsteførd, Rəhmət. (1391 h.ş.). Neqahe dobare be məsəleye ummi budəne Peyambəre Əkrəm (ə). *Pəjuheşnameye Qoran və Hədis*, (3). Qum.
8. İbn Babveyh, Məhəmməd ibn Əli. (1395 h.q.). *Kəmalu əl-din və təmamu əl-neməh*. Tehran: İslamiyyə.
9. İbn Babveyh, Məhəmməd ibn Əli. (1403 h.q.). *Məaniyul əxbar*. Qum: Dəftəre İntişarate İslami.
10. İbni Ətiyyə Əndəlosi, Əbdulhəqq ibn Ğalib. (1422 h.q.). *Əl-Muhərrirul vəciz fi təfsiril-kitabil-əziz*. Beyrut: Darul Kutubul Elmiyyə.
11. İbn-Mənzur, Məhəmməd ibn Mukrim. (1414 h.q.). *Lisanul-ərəb*. Beyrut: Dar-Sadir.
12. Məclisi, Məhəmməd Baqir. (1983). *Biharul-ənvar* (İkinci çap). Beyrut: Muəssisətul-Vəfa.
13. Muğniyə, Məhəmməd Cavad. (1424 h.q.). *Təfsirul-kaşif*. Tehran: Darul-kutub əl-İslamiyyə.
14. Mütəhhəri, Mürtəza. (1381 h.ş.). *Peyambəre ummi*. Tehran: Sədra Nəşriyyatı.
15. Mütəhhəri, Mürtəza. (ts.). *Məcmueye Asare Şəhid Mütəhhəri*. Qum: İntişarati Sədra.
16. Qəzvini, Məhəmməd ibn Yəzid. (1418 h.q.). *Sunəni ibn Macə*. Beyrut: Darul Ehya il-Kutub il-Ərəbiyyə.

**17.** Qonduzi, Süleyman ibn İbrahim. (1422 h.q.). *Yənabiul məvəddəh ləzəvi əl-qurba*. Qom, İran: Daru əl-usvə litəbəati və əl-nəşr.
**18.** Qurəşi, Seyyid Əliəkbər. (1377 h.q.). *Təfsir Əhsənül-hədis*. Tehran: Bunyade Besət.
**19.** Rağib İsfahani, Hüseyn ibn Məhəmməd. (1412 h.q.). *Əl-Müfrədat fi ğərib əl-Quran*. Beyrut: Darul-elm.
**20.** Rza, R. (1990). *Əl-Mənar*. Qahirə: Heyət əl-Misriyyə əl-Ammə.
**21.** Səffar, Məhəmməd ibn Həsən. (1404 h.q.). *Bəsairu əl-dərəcat fi fəzaili ali Muhəmməd*. Qum, İran: Məktəbətu Ayətullah əl-Mərəşi əl-Nəcəfi.
**22.** Şeyx Tusi. (ts.). *Ət-Tibyan fi təfsir əl-Quran*. Beyrut: Dar ehya ət-turas əl-ərəbi.
**23.** Siyuti, Cəlaluddin. (1404 h.q.). *Əldurrul mənsur fi təfsiril Məsur*. Qom: Kitabxaneye Ayətullah Mərəşi Nəcəfi.
**24.** Təbatəbayi, Seyyid Məhəmməd Hüseyn. (1417 h.q.). *Əl-Mizan fi təfsir əl-Quran*. Qum: İntişarati İslami.
**25.** Təbərsi, Fəzl ibn Həsən. (1372 h.ş.). *Məcməul bəyan fi təsiril Quran*. Tehran: İntişarate Nasir Xosrov.
**26.** Təbrani, Süleyman ibni Əhməd. (1398 h.q.). *Əlmöcəmul əl-kəbir*. Qahirə, Misir: Məktəbətu ibni Teymiyyə.

## REFERENCES

**1.** Alusi, S. M. (1415 A.H.). *The Spirit of Meanings in the Interpretation of the Great Qur'an*. Beirut: Dar al-Kutub al-Ilmiyyah. (in Arabic)
**2.** Bahrani, S. H. (1416 A.H.). *Al-Burhan in the Interpretation of the Qur'an*. Tehran: Boyade Besat. (in Arabic)
**3.** Baydawi, N. (1989). *Baydawi's Tafsir*. Beirut: Dar Ihya al-Turath al-Arabi. (in Arabic)
**4.** Bukhari, M. ibn I. (1410 A.H.). *Sahih al-Bukhari*. Cairo, Egypt: Arab Republic of Egypt. (in Arabic)
**5.** Javahiri, M.-H. (1397 S.H.). *Response to the Doubts of Inimitability and Challenge*. Islamic Culture and Thought Research Institute. (in Persian)
**6.** Davenport, C. (1344 S.H.). *An Apology at the Court of Muhammad and the Qur'an* (Trans. by unknown). Tehran: Nashr-i Intishar. (in Persian)
**7.** Homami, A., & Shayestefard, R. (1391 S.H.). A New Look at the Issue of the Prophet's Illiteracy. *Qur'an and Hadith Research Journal*, (3). Qom. (in Persian)
**8.** Ibn Babawayh, M. ibn A. (1395 A.H.). *The Perfection of Religion and the Completion of Blessing*. Tehran: Islamiyeh. (in Arabic)
**9.** Ibn Babawayh, M. ibn A. (1403 A.H.). *Meanings of the Reports*. Qom: Islamic Publications Office. (in Arabic)

**10.** Ibn Atiyya al-Andalusi, A. ibn G. (1422 A.H.). *The Concise Editor in the Interpretation of the Noble Book*. Beirut: Dar al-Kutub al-Ilmiyyah. (in Arabic)
**11.** Ibn Manzur, M. ibn M. (1414 A.H.). *Lisan al-Arab*. Beirut: Dar Sadir. (in Arabic)
**12.** Majlisi, M. B. (1983). *Seas of Lights* (2nd ed.). Beirut: Mu'assasat al-Wafa. (in Arabic)
**13.** Mughniya, M. J. (1424 A.H.). *Kashif's Tafsir*. Tehran: Dar al-Kutub al-Islamiyyah. (in Arabic)
**14.** Motahhari, M. (1381 S.H.). *The Illiterate Prophet*. Tehran: Sadra Publications. (in Persian)
**15.** Motahhari, M. (n.d.). *Collected Works of Martyr Motahhari*. Qom: Sadra Publications. (in Persian)
**16.** Qazvini, M. ibn Y. (1418 A.H.). *Sunan Ibn Majah*. Beirut: Dar Ihya al-Kutub al-Arabiyyah. (in Arabic)
**17.** Qunduzi, S. ibn I. (1422 A.H.). *Springs of Affection for the Prophet's Family*. Qom, Iran: Al-Uswa Press. (in Arabic)
**18.** Qureshi, S. A. (1377 A.H.). *Ahsan al-Hadith Tafsir*. Tehran: Besat Foundation. (in Arabic)
**19.** Raghib Isfahani, H. ibn M. (1412 A.H.). *Lexicon of Qur'anic Terms*. Beirut: Dar al-Ilm. (in Arabic)
**20.** Reza, R. (1990). *Al-Manar*. Cairo: Egyptian Public Authority. (in Arabic)
**21.** Saffar, M. ibn H. (1404 A.H.). *The Degrees of Knowledge in the Virtues of the Family of Muhammad*. Qom, Iran: Ayatollah Marashi Najafi Library. (in Arabic)
**22.** Shaykh Tusi. (n.d.). *At-Tibyan fi tafsir al-Quran*. Beirut: Dar Ihya al-Turath al-Arabi. (in Arabic)
**23.** Suyuti, J. (1404 A.H.). *The Scattered Pearls in Transmitted Tafsir*. Qom: Ayatollah Marashi Najafi Library. (in Arabic)
**24.** Tabatabai, S. M. H. (1417 A.H.). *Al-Mizan in the Interpretation of the Qur'an*. Qom: Islamic Publications. (in Arabic)
**25.** Tabarsi, F. ibn H. (1372 S.H.). *Majma' al-Bayan in Qur'an Interpretation*. Tehran: Nasir Khosrow Publications. (in Arabic)
**26.** Tabrani, S. ibn A. (1398 A.H.). *The Great Dictionary*. Cairo, Egypt: Ibn Taymiyyah Library. (in Arabic)